## «195»ə müraciət edənlərin sayı artır

2012-ci ilin iyul ayı ərzində Vergilər Nazirliyinin Telefon Məlumat Xidmətinə 28976 müraciət daxil olmuşdur. Bu müraciətlərin 13959-u müfəttiş-operatorlar tərəfindən canlı rejimdə, 15017-si elektron operator tərəfindən avtomatik rejimdə cavablandırılmışdır.

Bundan əlavə, mesaj xidməti vasitəsilə 200249 vergi ödəyicisi məlumatlandırılmışdır ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 9,3 dəfə çoxdur.

Hesabat dövründə vergi ödəyicilərindən daxil olan müraciətlər sırasında elektron xidmətlərlə (25,4%) və vergi ödəyicilərinə göndərilmiş mesajlarla bağlı müraciətlər (13,1%), vergi növləri (12,3%), qeydiyyat prosesi (11,2%), hesabatlar və onların doldurulma qaydaları (10,6%), büdcə, vergi ödəyiciləri və vergi orqanlarının rekvizitləri (9,8%) barədə məlumatların əldə edilməsi ilə bağlı müraciətlər üstünlük təşkil etmişdir.

Hesabat dövründə sual xarakterli müraciətlərin 98,9%-i müfəttiş-operatorlar tərəfindən birbaşa cavablandırılmış, 1,1%-i barədə isə müvafiq araşdırılma aparılması üçün sual vərəqəsi tərtib edilmişdir.

72 müraciət araşdırılması üçün aidiyyəti üzrə göndərilmişdir.